

## Ölkəmizi tanıyaq



# Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə



“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya iştirakçılarının Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə ekskursiyası uğurla başa çatıb.

Paytaxtın Xətai, Səbail, Suraxanı rayonlarından, eləcə də Abşeron, Neftçala, Salyan, Şirvan, Cəlilabad və İmişlidən olan məktəblilər noyabrın 19-da Gəncə şəhərindən yaşadıqları şəhər və rayonlara yola düşüblər.

Şagirdlər Gəncə Şəhər İcra Hakimiyyətinin və Təhsil Şöbəsinin məsul işçiləri tərəfindən yola salınıblar.

Qeyd edək ki, 9 şəhər və rayondan olan 360 məktəbli noyabrın 16-dan 19-dək Gəncə şəhərinin, eləcə də Göygöl və Şəmkir rayonlarının sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarixi-mədəni abidələr, turizm obyektləri, muzeylərlə tanış olublar. Maarifləndirici xarakter daşıyan tur-aksiya zamanı məktəblilərə bölgənin tarixi, adət-ənənələri, coğrafiyası, turizm imkanları haqqında məlumat verilib.

Şagirdlərin iştirakı ilə intellektual oyunlar, müxtəlif viktorinalar keçirilib, musiqili-əyləncəli gecə təşkil olunub.

❖ ❖ ❖

Respublikamızın şəhər və rayonlarının IX-XI sinif şagirdləri üçün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsi uğurla başa çatıb.

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə keçirilən tur-aksiyada iştirak edən Göygöl, Tovuz, Ağdaş, Siyəzən, Füzuli, Quba, Qusar, Xaçmaz, Şabran və Xızı məktəblilərindən ibarət 10 qrupun üzvləri noyabrın 19-da Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

Rayon icra hakimiyyəti və təhsil şöbəsinin məsul işçiləri tərəfindən yola salınan tur-aksiya iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Sonra “Qafqaz Karvansaray” və “Qafqaz Sport” hotellərinin qarşısından şagirdləri yaşadıqları rayona aparan avtobus karvanı yola düşüb.

Qeyd edək ki, 10 şəhər və rayondan olan 400 məktəbli tur-aksiyanın proqramına uyğun olaraq noyabrın 16-19-da Qəbələ, Şəki və Zaqatala rayonlarının sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarixi-mədəni abidələr, turizm obyektləri, muzeylərlə tanış olublar. Maarifləndirici xarakter daşıyan bu tur-aksiya zamanı məktəblilərə bölgənin tarixi, adət-ənənələri, coğrafiyası, turizm imkanları haqqında məlumat verilib.

Şagirdlərin iştirakı ilə intellektual oyunlar keçirilib, musiqili-əyləncəli gecə təşkil olunub. Ekskursiya zamanı gözəl təbiət qoynunda istirahət edən, mənzərəli guşələrdə xatirə şəkilləri çəkdirən məktəblilər Qəbələ, Şəki və Zaqataladan xoş təəssüratlarla ayrılıblar.



❖ ❖ ❖

“Ölkəmizi tanıyaq” layihəsinin səkkizinci mərhələsi çərçivəsində ölkəmizin regionlarına təşkil edilmiş tur-aksiyalar başa çatıb.

Ümumtəhsil məktəblərinin şagirdləri və onların müəllimləri dörd gün ərzində səyahət etdikləri şəhər və rayonların tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələrlə yaxından tanış olublar.

Noyabrın 19-da tur-aksiyanın Bakının Sabunçu, Nərimanov, Nizami və Binəqədi, həmçinin Zəngilan, Şuşa, Zaqatala, Balakən, Qax və Yevlax rayonlarından olan iştirakçıları yaşadıqları şəhər və rayonlara yola düşüblər.

Aksiyanın iştirakçılarını Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər və ictimaiyyətin nümayəndələri yola salıblar.

❖ ❖ ❖

Ötən 4 gün ərzində Qəbələ, Şəki və Zaqatala rayonları ilə tanış olan, tarixi abidələrə, turizm obyektlərinə və istehsal müəssisələrinə ekskursiya edən Göygöl, Tovuz, Ağdaş, Siyəzən, Füzuli, Quba, Qusar, Xaçmaz, Şabran və Xızı məktəbliləri arasında proqrama uyğun olaraq “Nə? Harada? Nə zaman?” adlı 8-ci intellektual oyun keçirilib.

“Ölkəmizi tanıyaq” layihəsinin sonuncu günü Azərbaycan İntellektual Klublar Assosiasiyasının təşkilatçılığı ilə “Qafqaz Sport” hotelində keçirilən bu oyunda məktəblilər öz biliklərini nümayiş etdiriblər. Assosiasiyanın nümayəndəsi, “GameTV.az” Prodüser Mərkəzinin redaktoru Fərrux Hüseynov çıxış edərək “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində ənənəvi olaraq keçirilən bu intellektual oyunun əhəmiyyətindən danışıb. O, bildirib ki, əsas məqsəd şagirdlərin indiyədək qazandığı bilikləri və dünyagörüşünü bu oyun vasitəsilə yoxlamaq, ən savadlı gəncləri aşkara çıxarmaqdır.

Fərrux Hüseynov hazırda Azərbaycan İntellektual Klublar Assosiasiyasının təşkilatçılığı ilə “Ölkəmizi tanıyaq” layihəsində iştirak edən şagirdlər arasında Qəbələ ilə yanaşı, Gəncə, Quba və Lənkəranda da bu cür milli intellektual oyunların keçirildiyini bildirib.

“GameTV.az” Prodüser Mərkəzinin yaradıcı heyəti və çəkiliş qrupu tərəfindən hazırlanan, Azərbaycanın televiziya kanallarında yayımlanan “Breyrinq”, “Əlaçı”, “61”, “Çto? Qde? Koqda?” intellektual verilişlərinin redaktoru olan Fərrux Hüseynov “Ölkəmizi tanıyaq” layihəsində qalib gələn komandaların gələcəkdə rəhbərlik etdiyi həmin bilik yarışlarına dəvət olunacağını qeyd edib.

Sonra intellektual oyunlara start verilib. İki saat davam edən yarışda hər rayondan 36 şagird iştirak edib və onlar tərkibində 6 nəfərin olduğu 6 qrupa bölünüblər. İştirakçılara “Ölkəmizi tanıyaq” layihəsinə uyğun olaraq məntiq, tarix, Azərbaycan filmləri, dünyagörüşü, abidələrimiz, dahi şəxsiyyətlər, dünyada baş verən maraqlı hadisələr, məktəbdə tədris olunan fənlər üzrə 24 sual verilib. Şəffaflığın təmin olunduğu yarış gərgin mübarizə şəraitində keçib.

Oyunun nəticələrinə görə, Xaçmaz məktəbliləri 1-ci, Tovuz şagirdləri 2-ci, Quba komandası 3-cü yerə layiq görülüb. Qaliblərə kubok, medal və sertifikatlar təqdim olunub.

❖ ❖ ❖

Şamaxı, İsmayıllı, Şəki, Oğuz, Qəbələ, Göyçay, Ağsu, Qobustan və Mingəçevir təmsil edən ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Quba şəhərində “Hərəmiz bir ağac əkək” devizi altında ağacəkmə aksiyasına qoşulublar.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə keçirilən yaşıllaşdırma aksiyasında məktəblilər və onlara rəhbərlik edən müəllimlər 300-dən çox ağac əkiblər.

Ağacəkmə aksiyasından sonra “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası çərçivəsində 300-dən çox məktəbli şimal bölgəsi ilə tanışlıq çərçivəsində muzeylər və parklar şəhəri Xaçmaza gəliblər.

Məktəbliləri Xaçmaz şəhərinin mərkəzindəki Heydər Əliyev parkında rayon icra hakimiyyətinin, təhsil, mədəniyyət və turizm şöbələrinin nümayəndələri qarşılayıblar.

Rayon icra hakimiyyətinin başçısının müavini İlhamə Nəzərova ölkəmizdə gənc nəslin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən danışıb, dövlət başçısının tapşırığına əsasən təşkil olunan aksiyanı məktəblilərin dünyagörüşünün formalaşmasında mühüm rol oynadığını bildirib. O, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın ölkəmizdə təhsilin, səhiyyənin, mədəniyyətin və idmanın inkişafına göstərdikləri diqqət və qayğıdan bəhs edib.

Məktəblilər ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.



Tur-aksiya iştirakçılarının diqqətinə çatdırılıb ki, Xaçmaz rayonu geniş turizm imkanlarına görə seçilən rayonlardandır. Buranı parklar və muzeylər şəhəri adlandırırlar. Bununla yanaşı, Xaçmaz ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından biridir.

Qonaqlar şəhərdəki yeni inşa olunan Heydər Əliyev Mərkəzində də olublar.

Daha sonra məktəblilər Xaçmaz şəhərində Azərbaycanın görkəmli şair və yazıçılarının, mədəniyyət və incəsənət xadimlərinin büstü qoyulan, açıq səma altında yaradılan Şəxsiyyətlər muzeyinə gəliblər. Ekskursiya iştirakçılarına 2006-cı ildə yaradılan muzey-park haqqında ətraflı məlumat verilib.

Tur-aksiyanın iştirakçıları 2013-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət ediblər. Diqqətə çatdırılıb ki, muzeydə həm ölkəmizin, həm də Xaçmaz rayonunun tarixini əks etdirən və turistlər üçün maraq doğuran çoxlu sayda eksponat var.

Məktəblilər Xaçmaz Dövlət rəsm qalereyası ilə tanışlıqdan sonra Bayraq Meydanı Kompleksinə gəliblər.

Meydan və Çənlibel parkında gəzintidən sonra məktəblilərin ekskursiyası başa çatıb.

**AZƏRTAC**

Azərbaycan.- 2017.- 22 noyabr.- S.8.